# Dövlət Suverenliyi milli sərvətimizdir



## Bayramların ən şirini, günlərin ən əzizi

**Bitdi!..**
**Savaş, faşizm, separatizm...**
**Haqsızlıq, ədalətsizlik, ikili yanaşmalar...**
**İki əsrdir düçar olduğumuz faciələr...**
**Göz yaşı, iztirab, vətəndə qəribçilik...**
**Milli ağrı-acılarımız, məhrumiyyətlərimiz...**
**2023-cü il sentyabrın 20-də bitdi!..**
**Xalq olaraq zülmlərimizin bitdiyi bu tarixdə yeni başlanğıclara qədəm qoyduq...**
**Suverenlik günümüz doğuldu...**
**Bu, 20 Yanvar hadisələrində, Xocalıda, Birinci Qarabağ, Vətən müharibəsində canlarını torpaqlarımız uğrunda qurban verən müqəddəs şəhidlərimizin bayramı oldu...**

Onilliklərdir itkin kimi andığımız, yaşadıqları, ya öldükləri barədə indiyəcən də xəbər tuta bilmədiyimiz yüzlərlə soydaşımızın, hələ də dəfnlərini gözləyən qərib ruhların dinclik tapdığı bayram oldu...

Bu bayram yurd-yuvasından didərgin düşərək çadırlarda, vaqonlarda yataqxanalarda vərəmləyərək, çərləyərək torpaq həsrəti ilə dünyalarını dəyişən, gözləri arxada qalan keçmiş məcburi köçkünlərimizin ruhlarını şadlandıran bayram oldu...

Hamımızın illərlə böyük həsrət, intizar, səbirsizliklə gözlədiyimiz və nəhayət qovuşduğumuz ən şirin, ən əziz bayramımız oldu...

20 Sentyabr Dövlət Suverenliyi Günü...

### Xoşbəxtliyin özü

Xoşbəxtlik deyilmi?!.

Təqvimdəki qara rəngli günlərimizin qırmızıya çevrildiyini görmək...

Xoşbəxtlik deyilmi?!.

Bayramlarımızın sırasında ən əziz bayramımızın yer tutduğu tarixə şahidlik etmək?!.

Xalq olaraq ta iki əsr əvvəldən addım-addım gəldiyimiz ağrı-acılı, çətin, sınaqlarla dolu şərəfli yolumuz Suverenlik bayramı ilə zirvəsinə yetişdi. Bizə bütöv Azərbaycanda yaşamağın qüruru nəsib oldu...

Əlbəttə, inanırdıq, əminliyimiz var idi ki, bir gün mütləq torpaqlarımız azadlığına qovuşdurulacaq, suverenliyimiz tam bərpa olunacaq, amma bəlkə də bir çoxlarımız bu xoşbəxt günləri görəcəyimizi ağlımızın ucundan belə keçirmirdik...

Ancaq biz müasir dövr azərbaycanlıların qismətinə yazıldı bu xoşbəxtliyi yaşamaq...

Hər zaman adı kimi bəxtinin də qara olduğundan şikayətləndiyimiz Qarabağımızın əbədi ağ günlərə qanad açdığını gözlərimizlə gördük...

### Azadlığın birinci ili

Başı üzərindəki çən-çiskin dağılan, kədəri sevinclə əvəzlənən Qarabağın indi hər daşından, qayasından zəfər nidası ucalır...

Onilliklər ərzində talanan, viranəyə çevrilən, düşmən tapdağında inləyən Qarabağ və Şərqi Zəngəzurumuz başdan-başa bayram libasına bürünüb.

Erməni separatizmindən əsrlərdir əziyyət çəkən Xankəndimiz azadlığının bir ilində əziz qonaqlarını qarşılamağın fəxarətini, Müzəffər Ali Baş Komandan İlham Əliyevin timsalında böyük xilaskarı ilə birgə Suverenlik bayramını qeyd etməyin qürurunu yaşayır.

Bu tarixi şəhərimizin milli ruhu da özünə qaytarılıb. Mədəniyyəti, incəsənəti, təhsili dirçəldilir. Xankəndi şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışının olması ümumilikdə şəhərə yenidən həyatın dönməsinin rəmzi simvoludur.

Azadlığının birinci ilində Xankəndidə qalib lider İlham Əliyev tərəfindən açılışı edilən və mindən artıq tələbəsi olan Qarabağ Universiteti hələ indidən Azərbaycanın ən yüksək reytinqli universitetlərindən birinə çevrilir.

Bütün bunlar bütövlükdə Xankəndinin əsl sahiblərinin qayıtdığını təcəssüm etdirən qürurlu hadisələrdir.

Ötən illər ərzində erməni separatçıları Xankəndiyə - Qarabağa sahiblənmək üçün xalqımıza qarşı çox amansızlıqlar etdilər. Günahsız insanlarımızın qanına bais oldular, azərbaycanlılara qarşı qətliamlar, soyqırımları törətdilər... Faşist xislətlilər vəhşi əməllərlə Azərbaycan xalqının iradəsini sındırmaq, torpaqlarının işğalı ilə barışmasına nail olmaq istədilər. Amma haqq nazilsə də, üzülmədi. Dönüb-dolaşıb yerini tapdı. Xalqımız heç zaman işğalçılara, separatçılara, onların arxasında dayanan güclərə boyun əymədi...

Xalq-ordu-dövlət birliyi yarandı. Sonra bu çevrilib "dəmir yumruq" kimi düşmənlərin başını əbədilik əzdi...

Zəfər qazandı, ərazi bütövlüyünü, suverenliyini bərpa etdi...

Bayramlarının siyahısına yeni qürurlu və şərəfli bayramlar yazdı...

Bütün dünyaya sübut etdi ki, Şuşa, Xocalı, Xankəndi... - Qarabağ Azərbaycandır!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*